# Birləşmiş Millətlərin Korrupsiya Əleyhinə Konvensiyası (BMKƏK) Transparency International təşkilatının bukleti

**Qəbul edilmişdir:** 31 oktyabr 2003-cü il tarixində BM Baş Assambleyasında
**İmzalar:** 113 (1 noyabr 2004-cü ilə qədər). 9 dekabr 2003-cü il tarixində imzalanma üçün açıq elan edilmişdir
**Ratifikasiya edilmişdir:** 10 ölkədə (22 noyabr 2004-ə qədər)
**Qüvvəyə minəcək:** 30-cu ratifikasiyadan sonra 90-cı gündə (2005-ci ilin sonlarında gözlənilir)
**İmzaylanmağa açılıb:** Bütün dövlətlər və regional iqtisadi təşkilatlar üçün
Yeni informasiyalar üçün **Website:**
http://www.unodc.org/unodc/en/crime_convention_corruption.html

Birləşmiş Millətlərin Korrupsiya Əleyhinə Konvensiyası (BMKƏK) təxminən 129 dövlət tərəfindən müzakirə və qəbul edilmişdir. Bu, korrupsiyanın qarşısını almaq və kriminallaşma, eləcə də beynəlxalq əməkdaşlıq və əmlakın qaytarılması sahəsində dövlətlərin görəcəyi işlər haqqında beynəlxalq razılaşmanı əks etdirən sənəddir. Bu sənəd dövlətlərin hamısı üçün problemin ümumi xarakter daşımasını və mürəkkəbliyini, sərhəd-aşırı korrupsiya fəaliyyətləri halında ortaq məsuliyyətin olmasını təsbit edir. Böyük potensiala malikdir, ancaq gerçəkləşməsinin səmərəli olması üçün böyük səylər qoyulmasına ehtiyac var. Müvafiq siyasi iradənin və resursların varlığı hələ aydın deyil.

**Ümumi struktur:** Səkkiz bölmə, 71 maddə

- I Ümumi müddəalar
- II Preventiv tədbirlər
- III Kriminallaşma və hüquq-mühafizə orqanları
- IV Beynəlxalq əməkdaşlıq
- V Əmlakın qaytarılması
- VI Texniki yardım və məlumat mübadiləsi
- VII Gerçəkləşmə mexanizmləri
- VIII Yekun müddəalar.

Əhatə dairəsi:

- Əhatə olunan sektorlar: Dövlət və özəl sektorlarda korrupsiya
- Əhatə olunan korrupsiya hüquqpozmaları: Yerli və xarici subyektlərin iştirak etdiyi rüşvət, mənimsəmə, vəzifədən sui-istifadə və çikli pulların yuyulması da daxil olmaqla korrupsiyanın geniş təsnifatı
- Tədbirlər: Preventiv, kriminallaşma və beynəlxalq əməkdaşlıq tədbirləri, eləcə də texniki yardım təminatı. Kriminal və mülki sanksiyalar.
- Təəhhüdlərin səviyyəsi: İcbari və könüllü təminatlar.

**Monitorinq tədbirləri:**

Konvensiya qüvvəyə mindikdən sonrakı bir il ərzində Konvensiyaya Tərəfdaş Dövlətlərin ilk Konfransı keçirilməlidir. Konfransın səlahiyyət dairəsinə Tərəfdaş Dövlətlərin Konvensiyanı gerçəkləşdirmə vəziyyətinin müzakirəsi, Konvensiyanı və onu gerçəkləşdirmənin təkmilləşdirilməsi haqqında tövsiyələrin hazırlanması daxildir. Konfrans Konvensiyanın gerçəkləşdirilməsi üçün Tərəfdaş Dövlətlərin istifadə etdiyi tədbirləri (və qarşıya çıxan çətinlikləri) qiymətləndirmə mexanizmlərini də müzakirə edə bilər. Digər anti-korrupsiya Konvensiyalarının təcrübəsinə əsaslanan səmərəli monitorinq mexanizmlərinin hazırlanması BMKƏK üçün əhəmiyyətlidir.

**Konvensiyanın əsas faydası:**

- Geniş çərçivədə korrupsiyaya qarşı mübarizənin əhəmiyyəti haqqında beynəlxalq müqavilənin, ümumi standartların əldə edilməsi. Bu, həqiqətən qlobal xarakter daşıyan yeganə Konvensiyadır.
- Qlobal miqyasda, şimal və cənubda, ilk dəfə olaraq əmlakın qaytarılması müddəasının işlənib hazırlanması
- Hüquq-mühafizə orqanlarının qarşılıqlı yardımı, o cümlədən ekstradisiya və təhqiqatlar sahəsində beynəlxalq əməkdaşlıq şəbəkəsinin təkmilləşdirilməsi
- Dövlət və özəl sektorlar üçün preventiv tədbirlərin yolları, vasitələri və standartlarının geniş işıqlandırılması

*Digər faydaları*

- Özəl və dövlət sektorlarındakı korrupsiyanın bu problemin hissələri kimi qəbul edilməsi
- Özəl sektorda səmərəli, tarazlı və təsiredici mülki, inzibati, ya kriminal cəzaların verilməsi üçün zəruri şərait; Dövlətlərin özəl sektor üçün hesablama və audit standartları təsis etmələri və vergi sahəsində rüşvətin aradan qaldırılmasına yönəlmiş şərait (12-ci maddə)
- Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizədə rolunun tanınması və informasiyaya azad çıxışın təmin edilməsi zərurəti (13-cü maddə)
- Hüquqi şəxslərin, yəni şirkətlərin vəzifələrini müəyyən edən şərtlər (26-cı maddə)
- Cinayətə baxılma müddətinin uzadılması ehtiyacının qəbul edilməsi (29-cu maddə)
- Şahidlərin, xəbər vermiş şəxslərin və korrupsiya qurbanlarının qorunması ehtiyacının tanınması (32 və 33-cü maddələr)
- Korrupsiyadan ziyan çəkmiş vahidlərin, ya şəxslərin hüquqlarının tanınması, kompensasiya üçün hüquqi proseslərin başlanması (35-ci maddə)
- Məlumat mübadiləsinə, texniki və maliyyə yardımına ehtiyacın, inkişaf etməkdə olan ölkələrin bu sahədə xüsusi ehtiyacının olmasının təsbit edilməsi (60, 61 və 62-ci maddələr)

**Əsas zəif cəhətlər:**

- Monitorinq mexanizmi haqqında konkret müddəanın olmaması

- Gerçəkləşmə üçün resursların hazırda olmaması
- Maddələrin çoxunun icbari olmaması ümumi standartların (məs., siyasi partiya fondları, özəl sektorda korrupsiya, telefonla proteksiyada) işlənməsində uğursuzluq riski yaradır
- Milli hüquq sistemləri üçün icbari tələblərin olmaması
- Beynəlxalq təşkilatların məmurlarının çox aşağı səviyyədə bu işə qatılması

**Növbəti addımlar:**

- Konvensiyanı imzalamış milli hökumətlərin bu Konvensiyanı ratifikasiya etməsi
- Konvensiyanın tələblərinə cavab verən yerli qanunların qəbul edilməsi (cari qanunvericiliyin uyğunluq dərəcəsindən asılı olaraq)
- Konvensiyanın qüvvəyə minməsi (30-cu ratifikasiyadan sonrakı 90-cı gündə)
- Konvensiyanın qüvvəyə minməsindən sonrakı bir il ərzində Konvensiyaya Tərəfdaş Dövlətlərin Konfransının hazırlanması və keçirilməsi. Konfransın işinin üstün istiqamətlərindən biri uyğun monitorinq prosesinin təmini və inkişaf etməkdə olan tərəfdaş dövlətə bu Konvensiyanı həyata keçirmək üçün zəruri resursların və texniki yardımın verilməsi haqqında razılığın əldə edilməsi olacaq.

19. 11. 04

# Birləşmiş Millətlər
# Korrupsiya əleyhinə Konvensiya

Meksikanın Merida şəhərində
9 dekabr 2003-cü il tarixində imzalanmışdır

"Bu Konvensiya təsirli vasitələr toplusundan ibarət olub, beynəlxalq ictimaiyyətin korrupsiya bəlasına qarşı birgə mübarizə aparmağa qadir olduğunu göstərir".

Peter Eigen, Sədr
Transparency International

## Dönüş nöqtəsi

2003-cü ilin oktyabrın 31-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası Korrupsiya əleyhinə BM Konvensiyasını (BMKƏK) qəbul etdi. Bu möhtəşəm sənədin imzalanma mərazimi 2003-cü ilin 9-10-da Meksikanın Merida şəhərində oldu. Transparency International (Tİ) Konvensiyanın müzakirəsində iştirak etdi və indi onun ratifikasiyası və həyata keçirilməsi istiqamətində çalışır. 2004-cü ilin noyabrı üçün bu sənədi artıq 113 dövlət imzalayıb, 10-u ratifikasiya edib.

Bu Konvensiya korrupsiyaya dünyanın bir cavabıdır. “Bu trans-milli fenomen cəmiyyətlərin və iqtisadiyyatların hamısına təsir edir, onun qarşısını almaq və onu nəzarətə götürmək üçün beynəlxalq əməkdaşlığı zəruri edir” (BMKƏK-in preambulası). Bu, korrupsiya haqqında dünyada tayı-bərabəri olmayan ilk hüquqi instrument, korrupsiyanın qarşısının alınması, kriminallaşması və beynəlxalq əməkdaşlığı ehtiva edən tədbirlər haqqında böyük sənəddir. Bu, əmlakın qaytarılması da daxil olmaqla yeni müddəalar ortaya qoyur.

Konvensiyanın imzalanmasının ilk ildönümü, ona qoşulmuş dövlətlərin ratifikasiya və gerçəkləşmə sahələrində nə qədər irəli getdiklərini qiymətləndirmək üçün əhəmiyyətli imkandır. Həmin gün, 9 dekabr 2004-cü il, BM Baş Assambleyası tərəfindən Beynəlxalq Anti-Korrupsiya Günü kimi qəbul edilmişdir və o, dünya miqyasında anti-korrupsiya tədbirlərinin keçirilməsinə səbəb olacaq.

## Konvensiya vurğulayır

Korrupsiyanın qarşısının alınması

Korrupsiya faktdan sonra ittiham oluna bilər, amma onun qarşısının alınması da çox əhəmiyyətlidir. Odur ki, Konvensiyanın tam bir bölməsi həm dövlət, həm də özəl sektorda korrupsiyanın qarşısının alınmasına həsr edilib. BMKƏK dövlət sektorunda anti-korrupsiya orqanlarının yaradılmasına və siyasi maliyyə sahəsində şəffaflığın artırılmasına çağırır. Dövlət idarəsində işləməyin qarantiyası ləyaqət, mənəvi kodeks və əmlak bəyannaməsinə əsaslanan işəqəbul qaydalarını ehtiva edir. Maraqların toqquşması məsələsi dövlət xidmətindən getdikdən sonra dövlət adamlarının özəl sektorda işləməsinə məhdudiyyətlərin qoyulması şəklində həll edilir.

Bu Konvensiya həmçinin dövlət maliyyəsi və dövlət tədarük sistemində şəffaflıq və maddi məsuliyyəti irəli çəkir, dövlət sektorunun məhkəmə kimi çox vacib sahələri qarşısında böyük tələblər qoyur.

Konvensiyada yer almış preventiv tədbirlər həmçinin vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizədə iştirakına və problem haqqında cəmiyyətin məlumatlandırılmasına dövlətin dəstək verməsini ehtiva edir. İnformasiyaya effektiv çıxış, eləcə də Konvensiyada əksini tapmış cinayətlər haqqında hesabatlar üçün kanallar cəmiyyətin üzünə açıq olmalıdır. Dövlətlər həmçinin cinayəti xəbər vermiş şəxsləri və şahidləri müdafiə etməlidir.

Cinayətin qarşısının alınması və özəl sektor

Konvensiyanın özəl sektor barədə tələbinə görə, qanun pozulmaları müqabilində adekvat cəzalarla birlikdə mühasibat və audit standartlarının yaxşılaşdırılması üçün tədbir görülməlidir. Qeyd olunmuş başqa preventiv tədbirlər sırasına özəl sektorda peşə etikası kodeksinin dəstəklənməsi; korporativ vahidlərin təsisi və

işləməsində rol oynamış şəxslərin adının aşkarlanması tələbi; dövlət orqanlarının kommersiya fəaliyyətləri üçün verdiyi subsidiyalar və lisenziyalar sahəsində prosedurlardan sui-istifadə edilməsinin qarşısının alınması daxildir. Çirkli pulların yuyulması halının müəyyən edilməsi və onun qarşısının alınması məqsədilə dövlətlər əhatəli nizamlayıcı və nəzarətedici rejim qurmalıdırlar.

## Kriminallaşma

Bu Konvensiya tələb edir ki, dövlətlər korrupsiya hərəkətlərinin geniş dairəsini əhatə edən cəzalar müəyyən etsinlər. Bu cəzalara yalnız rüşvət və dövlət fondlarının mənimsənilməsi deyil, həmçinin vəzifədən sui-istifadə, korrupsiya gəlirlərinin gizlədilməsi və "yuyulması" da daxildir. Korrupsiya hallarını müdafiə, o cümlədən məhkəmənin qarşısını almaq da cəzalar toplusuna daxildir. Konvensiyanın tamamilə yeni xarakterli maddələrində özəl sektor daxilindəki korrupsiya sahələri də diqqətdən kənarda qalmır. Konvensiya dövlətləri özəl sektorun özünün daxilində olan rüşvət və mənimsəmə hallarına diqqət yetirməyə çağırır. Beynəlxalq hüquqdakı müxtəliflik səbəbindən bəzi cəzalar icbari xarakter daşımır.

## Beynəlxalq əməkdaşlıq

Konvensiyanı imzalamış dövlətlər korrupsiyaya qarşı mübarizənin bütün sahələrində, o cümlədən cinayətin qarşısının alınmasında, onun təhqiqatında və cinayətkarın ittiham edilməsində bir-biri ilə əməkdaşlığa razıdırlar. Tərəfdaşa çevrilmiş dövlətlər məhkəmədə istifadə üçün dəlillərin toplanması və ötürülməsində qarşılıqlı hüquqi yardımın spesifik formalarını təklif etməli, cinayətkarı ekstradisiya etməlidirlər. Dövlətlər həmçinin korrupsiya gəlirlərinin təqib edilməsi, dondurulması, həbs edilməsi və konfiskasiyası üçün tədbir görməlidirlər.

## Əmlakın qaytarılması

Ən əhəmiyyətli uğur onda oldu ki, dövlətlər əmlakın qaytarılmasının "Konvensiyanın fundamental prinsipi" (51-ci maddə) olmasında razılaşdılar və intensiv danışıqlardan sonra bu prosesə yardım mexanizmlərində konsensusa gəldilər. İnkişaf etməkdə olan bir çox ölkə üçün bu, açar problemdir. Çünki burada yüksək səviyyəli dövlət məmurları iqtisadi inkişaf üçün zəruri olan milli resursları qarət etmişlər. Bu bölmədə razılığa gəlmiş tərəflər əmlakın geri qaytarılmasına çalışan ölkələrin ehtiyacı ilə yardım xahiş olunan ölkələrin prosedur təminatlarını uyğunlaşdırmağa çalışırlar. Bunun nəticəsi olaraq təklif edilməli olan əməkdaşlıq və yardım formaları haqqında dəqiqləşdirilmiş maddələr toplusu Konvensiyada yer aldı. Əmlakın qaytarılması haqqında effektiv maddələr korrupsiyanın ən pis nəticələrinin aradan qaldırılması sahəsində dövlətlərin cəhdlərini dəstəkləyəcək, eyni zamanda bu, korrupsiyaya qurşanmış məmurlara məsaj göndərəcək ki, qeyri-qanuni var-dövləti gizlətmək üçün dünyada yer yoxdur.

İstəyimiz

BMKƏK-i gerçəkliyə çevirmək üçün dünya dövlətləri təcili Konvensiyanı ratifikasiya etməlidir (onun qüvvəyə minməsi üçün 30 ratifikasiya lazımdır). Onun işləməsi üçün gərəkli qanunvericilik aktlarının qəbulu lazımdır. Onun təsirli olması effektiv monitorinq mexanizmindən asılıdır. Bu mexanizm haqqında qərar Tərəfdaş Dövlətlərin Konfransında verilməlidir. Tİ bütün dünyada anti-korrupsiya mütəxəssislərini və aktivistləri bu addımları müdafiə etməyə çağırır. 2004-cü ilin 9 dekabr Beynəlxalq Anti-Korrupsiya Günü bunun üçün gözəl imkanlar yaradır.

Konvensiya haqqında daha ətraflı məlumat almaq üçün baxın: www.unodc.org/unodc/en/crime_convention_corruption.html

Tİ Anti-Korrupsiya günü çərçivəsindəki tədbirlər haqqında: http://www.transparency.org/un_day/index.html

TRANSPARENCY INTERNATIONAL

Alt Moabit 96, 10559 Berlin, Germany
T +49-30-34 38 200 F +49-30-34 70 39 12
www.transparency.org / ti@transparency.org